# Avşarlar

**24 Oğuz Türk boyundan biri**

Avşar, Oğuzların ilkin iyirmi dörd boyundan biridir. Hal-hazırda İran, Türkiyə və Əfqanıstanda dağınıq biçimdə geniş yayılmışlar. Avşarlar ilk dəfə Qaşqarlı Mahmud tərəfindən qeyd olunmuşlar. Rəşidəddinə əsasən, eyni adlı boyun əsasını qoymuş Avşar, Oğuz Xanın üçüncü oğlu Yıldız Xanın oğlu olmuşdur. Macar Türkoloqu Nemetin fikrincə Avşar adı “sözəbaxan” (üzüyola, yatımlı) deməkdir.

Avşarlar Orta Doğuya yəqin ki, böyük Səlcuq köçləri ilə (11-ci yüzil) gəlmişlər. Artıq 12-ci yüzildə biz, Səlcuqluların xidmətində Xuzistan valisi olmuş iki Avşarı görürük. Sonrakı iki yüz il boyunca Avşar adına tarixi salnamələrin heç birində rast gəlinmir, ancaq bunun nədəni güman ki, o çağlardakı tarixi əsərlərdə hər hansı bir boy və bütün Türk boyları üçün daha dəqiq və bəlirgin adlar yerinə qeyri-müəyyən Türkəman (Türkman) istilahının istifadə olunmasıdır. Daha sonra biz onlar haqqında 14-cü və 15-ci yüzillərdə eşitdiyimiz zaman, onlar artıq İranın əksər yerlərinə yayılmış, başçıları isə öncə Qaraqoyunluların, daha sonra isə Ağqoyunluların dayağına çevrilmişdilər. Səfəvilər çağında Avşarlar, hakimiyyətin hərbi yöndən onurğasını təşkil edən Qızılbaş və Şahsevən boybirliklərində seçkin yer almışlar. Onlar həmçinin Səfəviləri bir çox qorçubaşı (şahın gözətçi birliklərinin rəisi), eyni zamanda bir sıra ordu sərkərdəsi və əyalət məmurları ilə təmin etmişlər.

Ancaq Səfəvi çağında Avşar boyu daha da dağınıqlaşdı. Orada həmişə hər hansı bir əyalətin və ya mahalın hakimi təyin olunmuş boy bəylərinin öz boydaşlarını xidmət və qoruma üçün özləri ilə bərabər aparmalarına bir meyllilik olmuşdur. Ancaq güclü mərkəzi hakimiyyət qurmaq istəyən Səfəvilərin hakimiyyəti altında bu parçalanma sürəci daha da sürətləndi. Dirənişci boyların və ya hakim sülalə üçün təhlükəli sayılan boyların dağıdılması bir milli siyasət məsələsi olmuşdu. Əksər hallarda oymaqlar və ya böyük boy birlikləri sərhədboyu ərazilərə köçürülür, bununla onlardan həm xarici basqınlara qarşı qalxan kimi, həm də onların sərhədaşırı yağmaçı hücumlara olan təbii meylliliklərini bu yolla təmin etmələri üçün istifadə olunurdu. Bu proses böyük köçürmələri planlamış, bəzən bütöv tayfaları nəhəng imperiya boyunca köçürtmüş I Şah Abbas (1587-1629) çağında özünün ən yüksək zirvəsinə çatdı.

Avşarlar öz keçmiş qüdrət və təsirlərini özü də Avşarların Qırxlı tirəsindən olan Nadir Şah Avşarın (1736-1747) çağında qaytara bildilər. Ancaq Nadir Şahın qatilləri arasında üç ayrı Avşar tirəsindən bəylərin olduğunu da vurğulamalıyıq. Avşar dövləti Xorasanda Nadir Şahın ölümündən və onun birbaşa varislərindən sonra da yaşadı. O, İrandakı Zəndlərlə Əfqanıstandakı Dürranilər arasında bufer dövlət mahiyyətində idi. Onun hakimi Şahrux yarım yüzilə yaxın bir sürə öz müstəqilliyini qorumuşdu. Ağa Məhəmməd Xan Qacar 1796-cı ildə Xorasanı fəth etdiyi zaman o, ölümünə işgəncə olunmuşdu. Avşarların Qacar ordusunun önəmli hissəsini təşkil etmələrinə və Avşar bəylərinin üsyanların yatırılmasında və xarici düşmənlərə qarşı Qacar dövlətinə dəyərli xidmətlər göstərmələrinə rəğmən, Avşar boyu o zamanacan o dərəcədə parçalanmışdılar ki, bütün keçmiş qüdrətlərini itirmişdilər.

Avşarların İrandakı toplam sayları ilə bağlı edilmiş təxminlərin bir qismi bunlardır: J. M. Jouannin — 88,000 fərd (onun A. Düprenin “İrana səyahət 1807-1809”-indəki (1819) tayfalar siyahısı); J. J. Morier — 20,000 ailə (“Elatların bəzi hesabları və ya 1814 və 1815-ci illərdə əldə edilmiş İranın köçəri tayfaları” (1837); İran Coğrafi Kataloqu — 12,000 ailə (1914); S. İ. Bruk — 300,000 nəfər (“Ön Asiyanın Əhalisi”, Moskva, 1960). Ancaq bu təxminlər çox qeyri-dəqiqdirlər. Avşarlar elə səpələnmişlər və buna görə onların bir çoxu oturaqlaşmışdır (və bununla da tayfa şüurunu itirmişlər) ki, onların sayı haqqında tam

təsəvvür yaratmaq olmur. Avşarların başlıca tirələri bunlardır: Alplu, Araşlu (Ərəşlü), Bəkəşlü, Gündüzlü, İmirlü, Kösə Əhmədlü, Papaqlu, Qasımlu və Qırıxlu. İmirlü tirəsi güman ki, Oğuzların ilkin boylarından İmir boyu ilə bağlıdır. Aynallular (İnanlu və İmanlu da deyilir), Usaluların (Usanlu) və Ustacluların qolları da Avşarlara qatılmışlar.

Avşarların İrandakı müxtəlif bölüklərinin qısaca təsviri aşağıdakı kimidir. Azərbaycanın günbatısında, Urmiyada və onun ətraflarında önəmli Avşar bölüyü bulunmaqdadır. Əfsanəyə görə, Avşarların birinci dalğası bu bölgədə hicri 802-ci (1399-1400) ildə Teymur Qorgin Bəy Usalu (Qurd Osalu) adında bəlli birini bu bölgənin valisi təyin edən zaman yerləşmişdir (B. Nikitin, "Urmiya Avşarları", 1929). Ancaq biz mövcud tarixi qaynaqlarda bunu doğrulayan bir bilgi tapa bilmirik. Bugünkü bilgilərə əsasən, Urmiyada Avşarların yurd salması Səfəvilər çağından başlayır və bunun əsasını qoyan Qasım Sultan İmanlu Avşar olmuşdur. Qasım Sultan, I Şah Abbasın hakimiyyətinin ilk illərində Kirmanşah ətrafındakı yürüyüşləri qorumaları tapşırılmış Avşar bölüyünün başına keçdi. O, Osmanlılara qarşı mübarizədə elə fərqlənmişdi ki, hicri 1032-ci (1622-1623) ildə Mosul valiliyi ilə mükafatlandırılmışdı. Ancaq bundan qısa bir sürə sonra, o, vəba epidemiyası ilə əlaqədar öz oymağı ilə birlikdə Batı Azərbaycana hərəkət etdi. Onun oğlu, Kəlb-i Əli Bəy hicri 1037-də (1627-1628) Urmiyanın valisi təyin olundu. Onların nəslindən Qasım Sultanın şərəfinə Qasımlu adlanmış tirə təşkil oldu. Bu Avşarlar, Urmiyaya, içlərindən bir çoxu görkəmli bəylərbəyi adı daşımış, toplamda otuz doqquz vali vermişlər. Urmiyanın Avşar valilərindən ən ünlüsü, Kərim Xan Zəndin hakimiyyətə yüksəlişi öncəsindəki qarışıqlıq dönəmində, öz təsirini Təbriz və Marağa da daxil olmaqla, Azərbaycanın böyük əksəriyyətinə yaymış Fətəli Xan Araşlu (Ərəşlü) olmuşdur. Urmiya Avşarları sərhəd döyüşçüləri idilər. Onlar təkcə Osmanlı axınlarına məruz qalmalarından deyil, eyni zamanda, qonşu Kürd tayfaları ilə savaş içində olmaqdan da əziyyət çəkmişlər. Bugün Urmiya Avşarları oturaqdırlar. Onların tirələri bunlardır: Göklü, Gündüzlü, Qasımlu, Bəkəşlü Ustaclu, İmanlu, Araşlu (Ərəşlü) və Sarı Bəylü. Hərçənd onların dəqiq sayını təxmin etmək mümkün olmasa da, ən azı 30,000 nəfər təşkil edirlər.

Nadir Şah 3,000-ə yaxın Avşar ailəsini öz sevimli istirahət guşələrindən birinə — Azərbaycanın güneyində, Cağatu çayı (hal-hazırda Zərrinərud adlanır) vadisində Sayınqala (hal-hazırda Şahindej adlanır) bölgəsinə köçürmüşdür. 19-cu yüzilin başlanğıcında 300-ə yaxın oba bulunduran Cağatu vadisində 3,500 Avşar ailəsi, eyni zamanda Mükri və Müqəddəm oymaqlarından və həmçinin Kürdüstandan çoxlu qaçqın məskun idi. Ancaq vadinin iqtisadiyyatı Türkləşmiş Lur oymağı olan Çahar Dovlilərin (Çahar Dəvəli və ya Çahar Doli də deyilir) gəlişi ilə darmadağın oldu. Ağa Məhəmməd Xan Qacar (1779-1797) onları Farsdan Qəzvin yaxınlığına köçürmüşdü. İndi isə, Fətəli Şah (1797-1834) Abbas Mirzənin xahişi ilə onları Azərbaycanın güneyinə köçürür. Çahar Dovlilər (Çahar Dəvəli) Cağatu vadisinə gələndə, onların sayı təxminən 4,000 ailə idi; onlara, İran ordusuna süvari birlik təmin etmək şərtilə, Miadoabdan (Qoşaçay) Sayınqalayadək geniş mülklər və buradan gəlir əldə etmək imkanı verildi. Ancaq yeni gələnlərə yer eləmək üçün Avşarların bir çoxu Urmiyaya qayıtmalı olmuşdu. Çahar Dovlilər (Çahar Dəvəli) kənd təsərüffatına az maraq göstərdiklərindən, vadinin inkişafı durmadan aşağı düşürdü. Daha sonra, 1825-1827-ci illərdə Rusiya ilə savaş dövründə, Çahar Dovlilərin (Çahar Dəvəli) əksəriyyəti bu yeri tərk edərək, Həmədan bölgəsində bu gün də onların adını daşıyan bir mahala yerləşdilər. Savaşdan sonra, vadidə cəmi 1,000 Avşar və təxminən bir o qədər də Çahar Dovli (Çahar Dəvəli) qalmışdı. Hər ikisi, hal-hazırda zəifləmiş durumda, bölgəyə cəzasız bir şəkildə basqınlar edən Kürdlərin qurbanına çevrilmişlər (Henri Roulenson, 1864-1925). 1960-cı illərdə Sayınqala Avşarları Mahmudcıqdan Takaba (Tikantəpə) doğru uzanan bir bölgədə 150-ə yaxın obada (və başlıca olaraq da bu iki məntəqəni birləşdirən yoldan quzeydə) yaşayırdılar. Onların bir çoxu yayları öz sürüləri ilə yaxınlıqdakı dağların yamaclarında keçirərlər. Onlar bu tirələri bölünürlər: Qasımlu, Qılıc Xani və Qırxlu.

Avşarların üçüncü bölüyü Xəmsə vilayətini (Zəncan ətrafında bir bölgə) güman ki, Səfəvi çağında yurd etmişlər. H. Fieldin fikrincə, bu Avşarlar ilkin olaraq 5,000 ailə idilər, ancaq 1920-ci ilə sayları 1,000 ailəyədək enmişdi ("İran antropolojisinə qatqılar", 1939, Çikaqo). 1850-ci illərdə Ledi Şeyl onların sayını 2,500 ailə təxmin edirdi. Onların əksəriyyəti öz keçmiş qışlaqlarında — hal-hazırda Qışlağat-i Avşar

kəndistanı adlandırılan, Zəncanın güneybatısında Qızıl Üzən çayı boyunda yaşayırlar. 1880-ci illərin başlarında, A. Houtum-Şindler də, Zəncanla Qızıl Üzən arasında, İcərud yaylasında və Takabdan (Tikantəpə) otuz iki km quzeydoğuda Çıraq Təpə obasında Avşarlarla qarşılaşmışdır. Köçəri olduqları zaman, onların yaylaqları Sultaniyədən yuxarıda və uzaqda quzeydoğuda Tarım təpələrində idi. 1805-ci ildə Xəmsədə olmuş P. A. Jober, Zəncanın, vilayətdə "hakim olan" Avşarların başlıca ticarət mərkəzi olduğunu yazırdı. Avşar boyu həmçinin vilayətə bir çox vali də vermişdir.

Avşarların dördüncü bölüyü özünü Tehran ətrafında göstərmişdir. Onların yaylağı Elburs dağlarının yamaclarında, qışlağı isə Reyin bir neçə mil güneybatısında, Şəhriyar və Gərdə yerləşir. Jouannin bu Avşarların sayını 7,000 nəfər (Düpre, "İrana 1807-1809-cu illər arasında səyahət", 1819), Ledi Şeyl isə 900 ailə qədər təxmin etmişdir.

Beşinci bölük özünü Mazandaranda göstərmişdir, lakin bu haqda çox az bir şey bilinir. Jouannin bu Avşarların sayını 5,000 nəfər, Ledi Şeyl isə 100 ailə qədər təxmin etmişdir. Ancaq görünür onlar ətrafdakı əhali içində ərimişlər, çünki son dövrkü qaynaqlarda qeyd olunmurlar.

Avşarların altıncı bölüyü Səfəvi çağlarında Məşhədin quzeyində Dərrəgəz bölgəsinə yol almışlar. Məhəmməd Mehdinin sözlərinə görə, Qırxlı tirəsindən olan bu Avşarlar, oraya, İranın quzeybatısından I Şah İsmayılın hakimiyyəti çağında (1501-1524) köçmüşlər; onlar öz yaylaqlarını Allahu Əkbər dağının yamacları boyunca Miab-e Qapqanda, qışlaqlarını isə "Dəstgerd-e Dərrəgəz" bölgəsində qurmuşlar. Ə. Kəsrəvi, onların Xorasana Çəmişkəzək Kürdlərindən bir dəstə ilə birlikdə I Şah Abbas tərəfindən Nesa və Abivərdi Özbəklərdən almaq üçün köçürüldüklərini iddia edir. Ancaq İskəndər Bəy, Özbək hakimi Übeydin ölümündən sonra Xorasanda yaranmış ixtilaflarda yer almış, Xosrov Sultan Koroğlu adlandırılan Avşar bəyini vurğulayır. Bu, Avşarların bu bölgədə artıq I Şah Təhmasibin hakimiyyəti (1524-1576) dövründə olduqlarına işarət edir. Məhəmməd Mehdi, Nadir Şahın 1729-cu ildə Əfqanıstana səfərbərlik zamanı Xorasana əlavə olaraq 12,000 Avşar ailəsini köçürdüyünü yazır; onların arasında 2,000 ailə Qırxlu tirəsindən idi. Dərrəgəz, Abivərd və Kəlat-e Nadiri bölgəsindəki minlərlə insan, çox güman həmin Avşarların nəslindəndirlər. S. İ. Brukun sözlərinə görə, Bocnurdun və Quçanın güneyində, həmçinin, Səbzivar və Nişapur arasında da Avşarlar var. Qırxlu tirəsi, öz gücünün və təsirinin zirvəsinə, özü də bu tirədən çıxmış və Dərrəgəz (günümüzdə həmçinin Məhəmmədabad da adlandırırlar) yaxınlığında bir alaçıqda doğulmuş Nadir Şahın çağında çatmışdır.

Avşarların yeddinci bölüyü, ən azından erkən Səfəvi çağlarından Kirmanşahda yerləşmişdir. Jouannin onların sayını 7,000 nəfər təxmin edir ("İrana səyahət", 1819). Onların nəslindən olanlara hal-hazırda Colqa-e Avşar (Həmədanın şərqində) kəndistanında və yaxınlığında Avşaran adında bir oba da bulunan Kəngavər ətrafında rast gəlinir (H. L. Rabino, "Kirmanşah", 1920). Bu Avşarlar sərhəd döyüşçüləri kimi xidmət etmiş və Osmanlılara qarşı bir çox savaşlarda yer almışlar.

Avşarların səkkizinci bölüyü bu gün İranın güneybatısı olan yerə Səlcuqlu çağında yerləşmişdir. Onların ilkin bilinən başçıları Şumla, hicri 550-ci (1155) ildə Xuzistanın valisi olmuşdur ("Kembric İran Tarixi", səh. 171-172). Səfəvi çağlarında, başlıca tirələri Gündüzlü, Araşlu (Ərəşlü) və Alplular olan bu çoxsaylı Avşarlar Kuhgiluyə (Kohgiluyə), Ram Hörmüz, Davraq və Şüştərdə bulunurdular (Ə. Kəsrəvi). Səfəvilər çağında və Nadir Şahın hakimiyyət illərində onlar Xuzistan və Kuhgiluyə (Kohgiluyə), eyni zamanda, Dezful və Şüştərə bir çox valilər yetişdirmişlər. Lakin onlar eyni zamanda, öz Lur və Ərəb qonşuları ilə çəkişmələrdə yer almış və dövlət hakimiyyətinə qarşı bir neçə böyük üsyan qaldırmışlar. Sonuncusu hicri 1005-ci (1596-1597) ildə Araşluların (Ərəşlü) və Kuhgiluyə (Kohgiluyə) Gündüzlülərinin çox da bəyənilməyən bir valiyə qarşı üsyanları ilə sonuclandı. Cəza səfəri ilə I Şah Abbas tərəfindən göndərilən Allahverdi Xan, üsyanı görünməmiş bir qəddarlıqla, minlərlə tayfa üzvünü qətlə yetirməklə yatırdı.

Hicri 1005-ci ilin üsyanı güneybatı İrandakı Avşarları təhlükəli dərəcədə zəiflətdi. Kəab Ərəblərinin, Bəxtiyarilərin və başqa tayfaların onlara, ən yaxşı otlaqları tərk etmələri üçün artan təzyiqi, çoxlarının qaçmalarına nədən olur. Avşar əraziləri, Nadir Şaha sui-qəsddən (1747) sonra yaranmış özbaşınalıq

dönəmində Kə’ b Ərəblərinin Davraq bölgəsini tutmaları ilə daha da azalmışdı. Xuzistan və Kuhgiluyədən (Kohgiluyə) olan Avşar köçkünləri Kirmaşah vilayətinə və Urmiya məntəqəsinə doğru yollandılar (bu bölgənin Avşarları arasında bundan qabaq Kuhgiluyənin başqa bir adı olan Kuhgəlü adlı tirə yox idi). Bu gün güneybatı İranda qalan Avşarlar Şüştərdəki Gündüzlülər və Kuhgiluyədəki (Kohgiluyə) Ağacəri tayfasının Avşar tirəsidir. Şüştərdəki Avşarlar, şəhərin Boleyti adlanan məhəlləsində və yaxınlıqdakı bir neçə obada yaşayırlar. Onlar təqribən 250 ailə təşkil edirlər. Kuhgiluyə (Kohgiluyə) Avşarları əsasən, Hindican yaxınlığında Çam Təng obasında yaşayırlar. Onların sayı təxminən 100 ailədir.

Fars vilayətində Avşarların iki kiçik bölüyü var. Birincisi, Qaşqay boy birliyindən Kəşküli Küçek boyunun, 1958-ci ildə sayları təqribən 120 ailə təşkil etmiş (İran Ordusunun Sənədləri) Avşar Kirmani tirəsidir. Yüz il bundan qabaq, bu bölüyü “Qacar Avşar” adlandırmış Ledi Şeyl, onları, 250-si Türklərdən olmaqla, 350-ə yaxın ailədən ibarət Türk və Ləklərin qarışığı kimi səciyyələndirmişdir. Avşar Kirmanilər güman ki, Qaşqaylara, bu sonuncular və digər köçəri Türklər 1830-cu illərin başlarında Fars valisi ilə ixtilafdan dolayı, müvəqqəti olaraq Kirman vilayətindəki Sircana köçdükləri zaman qatılmışlar. Bugün, Lək hissəsi Kəşküli Küçek boyunun ayrıca bir tirəsidir. İkinci Avşar bölüyü Avşar Uşağı adlanır və Fəsadakı Aynallu (İnanlu, İnallu da deyilir) boyunun bir tirəsini təşkil edir. Bu bölük, Aynalluların (İnanlu, İnallu) ardınca Farsa mərkəzi İrandanmı gəlmişdir, yoxsa bunlar da 1830-ci illərdə Sincanda qatılmışlar, bəlli deyil. Ancaq güman ki, Farsa, Avşarların öncəki köçləri də var idi. Bəzi Avşarların, hicri 904-cü (1498-1499) ildə Farsa vali təyin edilən Mənsur Bəyi müşayiət etmələri mümkündür. Böyük ehtimalla, I Şah Abbasdan başlayaraq 250 il boyunca Kazerun valisi olmuş Alplu Avşarlarının öz boydaşları da vardı. Və nəhayət, Bellan, I Şah Abbasın hakimiyyətinin ilk illərində Əbərkuhda yurd tutmuş bir Avşar bölüyünü qeyd edir.

Kirman vilayətində Avşarların ən az üç bölüyü var. Vilayətə ilk ayaq basan Avşarlar, güman ki, bunu 16-cı yüzildə etmişlər. Hər halda, ilk Avşar valisi Şahqulu Sultan, I Şah Təhmasib çağında, hicri 933-cü (1526-1527) ildə təyin olunub. O, hicri 943-də (1536-1537) Şah Təhmasibin Xorasana dördüncü yürüşündə iştirak etmişdir. Zənd sülaləsinədək, Kirmanın daha səkkiz Avşar valisi olmuşdur. Onlardan ikisi — Yusif Xan və Vəli Xan, I Şah Abbasın hakimiyyətinin əvvəllərində qorçubaşı kimi xidmət etmişlər. Kirmanın Avşar valilərindən sonuncusu, Şahrux Xan, Kirmanı, Nadir Şahın ölümündən sonrakı çalxantılı dövrdə ələ keçirmişdir. O, Sistanlıları və Bəlucları yenərək, on il boyunca İranın güneydoğusunda yarım-müstəqil hökmdar kimi hakimlik etmişdir. Lakin o, hicri 1172-ci (1758-1759) ildə Kərim Xan Zənd tərəfindən məğlub edilmiş və öldürülmüşdür.

Kirman Avşarlarının sayı üçün bəzi təxminlər bunlardır: Jouannin, 6,000 nəfər (“İrana səyahət”, 1819); Ledi Şeyl, 1,500 ailə; Sayks, 10,000 ailə (Solsberi Markizinə məktub, 14 May, 1900-cu il tarixli); Keyhan, 5,000 ailə (Coğrafya-i mufassal-i İran, səh. 94); Henri Field, 4,275 ailə (“İran antropolojisinə qatqılar”, 1939). Kirman vilayətindəki Avşar bölükləri aşağıdakılardır:

1. Cahanşahi Avşarları: Onların ağsaqqalları, bu bölüyün, quzeybatı İrandan çıxdıqlarını və Kirman vilayətində, uzun bir sürə Fəsa yaxınlığında və Farsda Cahromda qaldıqdan sonra məskunlaşdıqlarını iddia edirlər. Onlar, H. Field tərəfindən qeyd olunmuş, Zəncan Avşarlarının Cahanşahlu tirəsiylə və Fəsadakı Avşar Uşağı tirəsiylə bağlı ola bilərlər. 1957-ci ildə onların sayı təqribən 1,200 ailə qədər idi. Onlar hələ də köçəri idilər və Sircanda yaşayırdılar (P. Oberlinq, “Türk Xalqları”, səh. 108-109).
2. Amui Avşarları: Onların ağsaqqalları, bu bölüyün, Kirman vilayətinə Nadir Şah tərəfindən Urmiya bölgəsindən köçürüldüyünü iddia edirlər. 1957-ci ildə onların sayı təqribən 400 ailə idi. Onlar hələ də köçəri idilər və Sircanda yaşayırdılar.
3. Buçaqçılar: Onların ağsaqqalları, bu bölüyün, bir zamanlar Zəncan və Rey Avşarları ilə bağlı olduğunu və Kirmana Nadir Şah tərəfindən köçürüldüyünü iddia edirlər. 1957-ci ildə onların sayı təxminən 500 ailə idi. Onlar hələ də köçəri idilər və Sircanda yaşayırdılar. Buçaqçılar ünlü

soyğunçular idilər. Sayks onların başçısını “İranın Robin Hudu” kimi dəyərləndirmişdir (“İranda On Min Mil”, səh. 435). Buçaqçılar, Birinci Dünya Savaşı dönəmində, güney İranda Britaniyaya qarşı üsyanda önəmli rol oynamışlar — özəlliklə 1916-cı ilin Avqust-Oktyabrında “Sircan Epizodu”nda (Sayks, “İran Tarixi”, London, 1951, səh. 464-465).

4. Mir Həbibi Avşarları: Orada hələ də bu bölüyün qalıqları Sircanda, Bərdsir ətrafında qalmış ola bilər. Bu, Sayks (“İranda On Min Mil”, səh. 73) və H. Field (“İran Antropolojisinə Qatqılar”, 1939, səh. 235) tərəfindən qeyd olunmuşdur; Sayks onların sayını iyirmi beş ailə qədər təxmin etmişdir. Kirmandakı Avşarlar haqqında son bilgiləri G. Stöberin araşdırmasında tapmaq mümkündür.

Bundan başqa, bir çox Avşar bölükləri də Türkiyədə var. Onlar aşağıdakı qaynaqlarda ətraflı təsvir olunurlar: A. Refik, “Anadolu’da Türk aşiretleri 966-1200”, İstanbul, 1930, səh. 47-48, 53-54, 76-77, 81-82, 100, 106-107, 112-113, 121, 131, 145-147, 169-171, 176-183, 186-187, 191-192, 200-201, 209-210, 212, 214, 219; Faruk Sümer, “Avşarlar’a dâir”, Fuad Köprülü Armağanı, İstanbul, 1953, səh. 453-478: F. Köprülü, “Avşar”, səh. 36-37. Əfqanıstanda da həmçinin çox sayda Avşar var. S. İ. Bruk onların sayını 30,000 nəfər təxmin edir. 1845-ci ildə Əfqanıstana səyahət etmiş C. P. Ferrier, Avşarların Andxoy əhalisinin dörddə-üçünü təşkil etdiyini təxmin etmişdir; və o, Meymənə yaxınlığındakı Çaharşənbə qəsəbəsini ziyarət zamanı, burada Avşar, Cəmşidi və Qıpçaqlardan ibarət qarışıq əhali bulmuşdur. Ferrier, Andxoy bölgəsinin Ali İli Türkmənlərinin Avşar mənşəli olduğuna inanırdı, ancaq G. Jarring bu nəzəriyyəyə şübhə ifadə etmişdir. Abd-əl-Kərim Buxari, Andxoydakı Avşarların buraya Xorasandan I Şah Abbas tərəfindən köçürüldüyünü bildirmişdir (“Əfqanıstandakı Türk Tayfalarının Bölgüsü Haqqında”, 1939, səh. 49). Uzun müddət Avşarların dirliyi olmuş, günbatı Əfqanıstanın Fərah və Əsfuzar (hal-hazırda Səbzivar adlanır) bölgəsində hələ də Avşarlar olmalıdır. Buranın bilinən ilk Avşar valisi, I Şah İsmayıl tərəfindən hicri 928-ci (1522) ildə bu vəzifəyə təyin olunan Əhməd Sultan olmuşdur (Həsən Bəy Rumlu, səh. 87, 106-107). Orada həmçinin, Nadir Şahın 1730-cu illərin sonlarında Hindistanı fəthi zamanı, Kabil, Herat və Əfqanıstanın digər şəhərlərindəki qarnizonlarda geri buraxdığı minlərlə “Qızılbaş” qoşununun nəsilləri arasında da Avşarlar olmalıdır.

---

***Pyer Oberlinq, 1984-cü il***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**